# ƏHƏD YAŞAYIR

## ƏHƏD YAŞAYIR

***Müəllimim Əhəd Hüseynovun əziz xatirəsinə***

*Yarımçıq qoymazdın gördüyün işi,*
*Həyatdan dərs idi həyatın bizə.*
*Ölümdən söz düşsə, deyərdin: əşi,*
*Soyuqluq salmayın ürəyimizə.*

*«Qız yükü, duz yükü» deyərdin hərdən.*
*Qızların güləndə qışın yaz oldu.*
*Qayğılı ürəyin dayandı birdən,*
*Sənin yeddi qızın yeddi saz oldu.*

*Həmişə həvəslə danışardın sən,*
*Heç vaxt hiss etməzdik yorğunluğunu.*
*Elə şirindi ki, hər mühazirən,*
*Bilməzdik zəngin də vurulduğunu.*

*Təzə don geyərdi sözün köhnəsi,*
*Hər şey canlanırdı titrək əlinlə.*
*Bədbəxt Mıtsirinin ölüm səhnəsi,*
*Necə təsirliydi sənin dilində.*

*Könlün gözəlliyin dustağı idi,*
*Gözəllik önündə qəlbin əsərdi.*
*Tənqidin bir bağban bıçağı idi,*
*Quru misraları qırar, kəsərdi.*

*Sənə zalım əcəl bəs necə qıydı?*
*Ürəyin tərtəmiz, işin tərtəmiz.*
*Sözlərin bir inam qığılcımıydı,*
*Bir ocaq çatmışdıq ondan hərəmiz.*

*İncə mətləbləri açardın bir-bir,*
*Canlı kitab idin, hər sözün baldı.*
*Ölüm bir insafsız «kitab sahibi»,*
*Səni əlimizdən yarımçıq aldı.*

*Bizi sarsıtsa da o matəm günü,*
*Qaldı ürəklərdə müqəddəs adın.*
*Sən qürub etmədin, günəş ömrünü*
*Bölüb şəfəqlərə bizə payladın.*

*Kim verə biləcək onun yerini,*
*Könlümdə bir dərin həsrət yaşayır:*
*Qoru mühazirə dəftərlərini,*
*Onun hər sətrində Əhəd yaşayır.*

***Rafiq Yusifoğlu***
***Sumqayıt şəhərindəki***
***23 №-li məktəbin müəllimi***
***1973-cü il.***